UOT 94(479.24), UOT 913.1

KÖNÜL ƏLİYEVA

Tarix üzrə fəlsəfə doktoru
AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi
https://orcid.org/0000-0001-9424-9293
Konulqabilqizi@mail.ru

SÜRMƏLİ (İQDIR) BÖLGƏSİNİN TARİXİ COĞRAFİYASI (1828-2025)

DOI: https://doi.org/10.36719/2708-065X/110/312-318

Sürməli (İqdır) bölgəsi Azərbaycanın qərbində, tarixi İrəvan vilayətinin – xanlığının cənub-qərb hissəsində yerləşir. Sürməli mahalı tarixi Azərbaycan ərazisi olmuşdur və Azərbaycan türkləri qədim və orta yüzilliklərdən bu yerlərdə davamlı şəkildə əhalinin əksər hissəsini təşkil etmişlər. Təqdim edilən məqalədə Sürməli (İqdır) bölgəsində XVIII-XX əsrlərdə baş verən inzibati və etno-demoqrafik dəyişikliklərdən bəhs olunmuşdur.

Açar sözlər: Sürməli qəzası, Aralıq və İqdır mahalları, erməni və kürdlərin köçürülməsi.

Giriş. Rusiya işğalı ərəfəsində Azərbaycanın qərbində, tarixi İrəvan vilayətinin – xanlığının cənub-qərb hissəsində **Sürməli (İqdır) mahalı** yerləşirdi. Sürməli mahalı tarixi Azərbaycan ərazisi olmuşdur və Azərbaycan türkləri qədim və orta yüzilliklərdən bu yerlərdə davamlı şəkildə əhalinin əksər hissəsini təşkil etmişdir. Bunu ilkin mənbələr əsasında Azərbaycan və Türkiyə mütəxəssisləri ilə yanaşı, amerikan və rus müəllifləri də qeyd etmişlər. Bu baxımdan, ABŞ-da yaşayan erməni əsilli tarixçi Corc Burnutyanın 19-cu əsrin ilk onilliklərində İrəvan xanlığının inzibati bölgüsü, mahallarının adları, sayı, etno-demoqrafik vəziyyəti və əhalisinin milli tərkibi haqqında araşdırmaları maraqlıdır. Erməni müəllifinin yazdığına görə, 19-cu əsrin üçüncü onilliyində xanlıq 15 mahaldan (Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talın, Seyyidli-Axsaxlı, Sərdarabad, Qərbibasar, Aparan, Dərəçiçək, Göyçə və Qırxbulaq) ibarət idi [1, s.122-123; 10, s.16]. Göründüyü kimi, mahalların hamısı bu ərazilərdə qədim zamanlardan davamlı yaşayan Azərbaycan türklərinin verdikləri və tarixən qərarlaşmış adlar ilə tanınırdı.

Rusiya tədqiqatçısı İ.Şopen də İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra inzibati bölgüdə dəyişiklik edilmədiyi, xanlığın yerində yaradılmış İrəvan əyalətində azərbaycanlı əhalinin verdiyi adları daşıyan 15 mahal olduğunu qeyd etmişdir [34, c.442-446].

İqdır adının mənşəyi. İqdır adı mənbələrdə öncə Sürməlinin qonşuluğunda şərq tərəfdə olan bir yaşayış yerinin, bölgənin adı, daha sonra Sürməli mahalının inzibati mərkəzi kimi xatırlanır. Türk tarixçisi Faruq Sumerə görə İqdır adı Oğuz xanın oğlanlarından birinin – İğdirin adından alınmışdır: "Oğuz xanın oğlu Dənizxanın – Dənizalpın oğulları İğdir, Büğduz, Yıvə və Kınık olmuşlar. Qaraqoyunlu tayfaları bu boylardan birinə mənsub olmuşdur. Qara Yusif 41-ci nəsildən Dənizalpa bağlanır" [17, s.14]. Azərbaycanlı tədqiqatçı Tofiq Nəcəfli də bu mülahizənin XV əsrdə Qara Yusifin və varislərinin hökmdarlıq etdikləri zamana aid qaynaqlarda əks olunduğunu qeyd etmişdir [11, s.26].

İqdır bölgəsinin tarixi haqqında qaynaqların nəşr olunduğu toplunun giriş hissəsində də İqdır adının keçmişinin Oğuz xan nəslinə qədər uzandığı qeyd edilmişdir. Toplu müəllifləri yazmışlar ki, 8-ci əsrdə Uyğur xaqanı Moyun-Çor tərəfindən inşa edilmiş "Terhin yazıtı" adlı abidədə İğdır adı əks olunmuşdur. Daha sonrakı dövrdə Mahmud Qaşqarinin "Divanı lüğətit-türk" əsərində İğdir, Fəzlullah Rəşidəddinin "Cəmi-ət-təvarix" əsərində Yığdır, Yazıçıoğlunun "Tarixi əl-Səlcuq" əsərində İğdir, Mehmet Nəşrinin "Kitabi Cihannüma" əsərində İğdır adı işlənmişdir [22, s.19]. Toponimika üzrə araşdırmalarda İğdır (İqdır) adının mənası igidlik, böyüklük, bahadırlıq bildirilir.

Sürməli adı isə İqdır bölgəsində erkən orta əsrlərdə mövcud olmuş Sürmari qalasının təhrif olunmuş adından yaranmışdır. Mənbələrdə 1064-cü ildə Səlcuqlu sultanı Alparslanın oğlu Məlikşah Naxçıvandan qərbə doğru yürüş edərkən öncə Ağrı dağından şimalda qayalıq ərazidə İqdır qalasını və ardın-

ca Sürmari qalasını fəth etməsi haqqında məlumatlar vardır [23, s.14]. Sonrakı yüzilliklərdə Ağrı dağı ilə Araz çayı arasındakı ərazi Sürməli çuxuru, 15-ci əsrdən isə həm də Səəd çuxuru adlanmışdır.

Coğrafi mövqeyi və təbii şəraiti. İqdır (Sürməli) mahalının şimal və şimal-şərq hüdudları Araz çayı boyunca olmuşdur. Bu çay üzərindən keçən sərhəddən şimalda və şimal-şərqdə İrəvan xanlığının, Rusiya işğalı dövründə isə İrəvan quberniyasının digər mahalları ilə qonşu idi. Şərqdə və cənub-şərqdə Naxçıvan və Maku xanlıqları, Rusiya işğalı dövründə isə İran Qacarlar dövləti ilə, cənubda və qərbdə Osmanlı imperiyasının Bəyazid və Qars bölgələri ilə həmsərhəd idi.

Sürməli mahalı qərbdən şərqə doğru uzanan 3 hissədən ibarət idi: *qərb hissə* – ***Sürməli*** (19-cu əsrin əvvəlində bu bölgə adı Dərəkənd-Parçenis, mərkəzi isə Qulp adlanırdı – K.Ə.), *orta hissə* – ***İqdır***, *şərq hissə* – ***Aralıq*** adlanırdı.

Sürməli (Dərəkənd-Parçenis) bölgəsi qərbdə Qars vilayətinin Kağızman bölgəsi, şimalda həmin vilayətin Diqor bölgəsi, cənubda Ağrı vilayətinin Bəyazit bölgəsi ilə həmsərhəd idi. Sürməli (Dərəkənd-Parçenis) bölgəsinin ən böyük yaşayış məntəqəsi ***Qulp*** idi. Qulpda çox böyük daş duz ehtiyatları vardı və qədim zamanlardan müxtəlif yerlərə ixrac edilmişdir. 1934-cü ildə Türkiyə dövləti bu kəndin adını **"Tuzluca"** adına dəyişdirmiş, bölgə də **"Tuzluca ilçəsi"** adlandırılmışdır. Tuzluca ilçəsində hazırda 81 kənd, 18 məzrəə (tərk edilmiş yaşayış məntəqəsi – K.Ə.) vardır [24, s.5].

Tuzluca İqdır il (vilayət – K.Ə.) mərkəzindən 41 km uzaqlıqda yerləşir. Tuzluca ilçəsinin sahəsi 1 236 kv.km-dir və bu göstəriciyə görə İqdır ilinin ən böyük bölgəsidir. Tuzluca ilçəsinin ərazisi cənubda dağlıq olub, dəniz səviyyəsindən 2 800 – 3 100 m yüksəklikdədir. Şimala doğru yüksəklik azalır və şimalda Araz çayı boyunda geniş düzənlik əraziyə malikdir. Tuzluca ilçəsində çox böyük – 613 milyard ton daş duz ehtiyatları vardır. Bundan əlavə, böyük həcmdə gips yataqları aşkar edilmişdir.

İlçədə və bütövlükdə İqdır ilində kontinental iqlim hakimdir. Lakin İqdıra nisbətən daha yüksəklik ərazini əhatə etdiyi üçün daha aşağı tempuratura malikdir, yağıntı isə daha çoxdur. Qış ayalarında 30-35 gün sular donur. Təbii bitki örtüyü çöl bitkilərindən ibarətdir və meşəlik ərazisi yoxdur.

İqdır (Sürməli) bölgəsinin qısa tarixi. Tarixi Azərbaycan torpaqlarının qərbində – Arpaçayın Araz çayına töküldüyü yerdən Naxçıvana kimi Arazın sağ sahili boyu və cənubda Ağrıdağına qədər ərazilər qədim zamanlardan Sürməli mahalı adlanırdı və Səədli tayfasının yurdu idi. XV əsrin əvvəlində Baharlı sülaləsi Təbrizdə hökmranlığa başlayanda Səədli nəsli Sürməli mahalı da daxil olmaqla bütün İrəvan vilayətinə sahiblik edirdi. Elə həmin dövrdən də bütün bölgənin Çuxursəəd adlanması [10, s.8-9] baş verdi.

İqdır (Sürməli) bölgəsi orta yüzilliklərdə Baharlı, Bayandurlu və Səfəvi sülalələrinin hakimiyyəti dövründə davamlı olaraq Azərbaycanın tərkib hissəsi olmuşdur. Müasir dövrdə Türkiyə Respublikasının şimal-şərqində yerləşən İqdır ili – İqdır vilayəti daha öncə Sürməli mahalı adı ilə Azərbaycan Səfəvi dövlətinin Çuxursəəd bəylərbəyiliyinin, 18-ci əsrin ortalarından etibarən isə İrəvan xanlığının ərazisi olmuşdur.

İqdır (Sürməli) bölgəsi 15-ci əsrdə Baharlı və Bayandurlu sülalələrinin hökmranlığı zamanında Çuxursəəd vilayətinə, Səfəvi sülaləsinin hakimiyyəti dövründə isə Çuxursəəd bəylərbəyiliyinin ərazisinə daxil idi. Yalnız Osmanlı sultanı III Murad (1574-1595) Amasiya sülhünün şərtlərini pozaraq 1578-ci ildə Səfəvi dövlətinə qarşı yeni müharibəyə başladıqdan sonra Azərbaycanın böyük bir hissəsini, o cümlədən Çuxursəəd bəylərbəyiliyini (O dövr Osmanlı mənbələrində bu bölgə həm də "Sürməli çukuru", "İrəvan-Iğdır ovası" [16, s.103] adlanırdı) özünə tabe etmişdi.

Görkəmli tarixçi alimlərimiz akademik Ziya Bünyadov və Hüsaməddin Məmmədovun araşdırmalarına görə, Çuxursəəd bəylərbəyiliyinin əhalisi Osmanlı ağalığı dövründə ağır vəziyyətə düşmüşdü. 1579-cu ilin sentyabr ayında Abaran nahiyəsindən Əli bəyin 3 min ailədən ibarət tayfası Ərzurum əyalətinə köçürülmüş, bir ay sonra Şərəbxana nahiyəsindən 20 min nəfər əsir aparılmışdı. 1583-cü ilin yayında İrəvan şəhərinin və ətraf nahiyələrin azərbaycanlı əhalisi yeni müharibə təhlükəsi ilə əlaqədar yaşayış yerlərini tərk edib Ağrıdağ yaxınlığındakı yaylaqlara, osmanlıların əlinin çatmadığı digər yerlərə qaçmışdılar [5, s.12].

1590-cı ildə sultan III Muradın əmri ilə tərtib olunmuş "İrəvan əyalətinin müfəssəl dəftəri" adlı mötəbər mənbədən aydın olur ki, işğaldan sonra Çuxursəəd bəylərbəyiliyi rəsmən İrəvan əyaləti adlanmış və iki livaya bölünmüşdü: İrəvan və Naxçıvan. İrəvan livasına 10 nahiyə daxil idi: İrəvan, Karbi,

Gərni, Vedi, Abaran, Şərabxana, Talin, Ərmus, Abnik və Aralıq [12, s.8]. İqdır (Sürməli) bölgəsinin adı bu mötəbər mənbədə Aralıq nahiyəsi kimi göstərilmişdir. "İrəvan əyalətinin müfəssəl dəftəri"ndəki məlumatlara görə, Aralıq nahiyəsində - İqdır (Sürməli) bölgəsində XVI əsrin 80-ci illərinin sonunda 28 kənd, 2 qışlaq və 8 məzrəə (tərk edilmiş yaşayış məskəni – K.Ə.) mövcud idi [6, s.213-218].

Həmçinin "İrəvan əyalətinin müfəssəl dəftəri"ndən bəlli olur ki, Osmanlı qoşunlarının hücumu zamanı bu bölgənin şiə əhalisinin böyük bir qismi dini təqiblərdən ehtiyat edərək öz ata-baba yurdunu tərk etmək məcburiyyətində qalmış və yurdları məzrəəyə çevrilmişdi. Azərbaycanlı əhalinin boş qalmış yurdlarına Osmanlı sultanı III Muradın əmri ilə Diyarbəkir tərəfdə və Dəclə çayı boyunda yaşayan sünni məzhəbindən olan kürd tayfaları köçürülmüşdü: "Diyarbəkirdən və sair yerlərdən sünni məzhəbli kürdlər, "Kurmaç" adlanan Dəclə kürdləri ... İrəvan və Naxçıvan bölgələrinə gətirilərək, buralardan köçmüş Qızılbaş-türkmənlərdən və Oyrat xalqından boşalan kənd və qəsəbələrdə yerləşdirildi" [20, s.437-438].

Görkəmli tarixçi akademik Yaqub Mahmudov İqdırda və İrəvan əyalətinin digər bölgələrində XVI yüzilliyin son onilliklərində Osmanlı sultanları tərəfindən yeridilmiş bu etnik yerdəyişmələrin gələcək nəticələri çox ağır olan yanlış siyasət olduğunu qeyd etmişdir: "Uzun sürən Səfəvi-Osmanlı müharibələri dövründə xalqlarımız hər iki tərəfdə ağır faciələrlə üz-üzə qalmışlar. Zaman-zaman Azərbaycan torpaqlarını işğal etməyə müvəffəq olan Osmanlı sultanları Türkiyə ilə həmsərhəd olan Azərbaycan torpaqlarında, o cümlədən İrəvan bölgəsində möhkəmlənmək üçün bu yerlərdən didərgin düşmüş şiə məzhəbindən olan Azərbaycan türklərinin boş qalmış şəhər və kəndlərinə Osmanlı torpaqlarından sünni məzhəbindən olan kürdləri və xristianları köçürürdülər. Ümumtürk tarixi üçün gələcək təhlükəni qiymətləndirə bilməyən Osmanlı sultanları Qərbi Azərbaycan torpaqlarında ... ermənіləri məskunlaşdırır və onlara xüsusi "qayğı" göstərirdilər*"* [8, s.4].

Lakin bu yanlış siyasət uzun sürmədi. XVII əsrin başlanğıcında şah I Abbasın hakimiyyəti dövründə Səfəvi dövləti işğal edilmiş torpaqlarını geri aldıqdan sonra İrəvan əyalətinin azərbaycanlı əhalisi öz doğma torpaqlarına, o cümlədən İqdır (Sürməli) bölgəsinə qayıtdılar. XVII əsrin ortalarında Çuxursəəd bəylərbəyiliyində, o cümlədən İqdır bölgəsində yaşayanların əksəriyyəti Azərbaycan türkləri idi. 1647-ci ildə Osmanlı səyyahı Övliya Çələbi İrəvana gedərkən Ağrı dağı və ətrafı haqqında "türkmənlərin oylağı" deyə bəhs etmişdi [32, s.104].

1673-cü ildə İrəvanda olmuş fransız səyyahı J.Şarden də bu yerlərin əhalisinin "təmizqanlı səfəvilər"dən (Azərbaycan türklərindən – K.Ə.) ibarət olduğunu göstərmişdi. J.Şardenin məlumatına görə, "İrəvan qalası təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı səfəvilər yaşayırlar" [13, s.21]. Fransız səyyahı İqdır bölgəsi haqqında yazmışdı*:* "Çox düzən və barlı-bəhərli bir ölkə ilə beş lyö (1 lyö – 4444 m və ya 1 saatlıq piyada yoluna bərabərdir – K.Ə.) getdik. O, dağlarla əhatə olunmuşdu. Sağdakı dağları Nuh dağı (Ağrı dağı nəzərədə tutulur – K.Ə.) adlandırırlar. Biz Qaynar adlı kiçik bir şəhərdə mənzil saldıq" [13, s.62].

XVIII əsrin 20-ci illərində Osmanlı sultanı III Əhməd (1703-1730) Səfəvi dövlətinin ağır vəziyyətə düşməsindən yararlanaraq onun Qafqazdakı mülklərinin çox hissəsini, o cümlədən İrəvan əyalətini ələ keçirmişdi. Bu zaman sultanın əmri ilə tutulan yerlərin yaşayış məntəqələri və əhalisi haqqında məlumatları əks etdirən "Müfəssəl və İcmal dəftərlər" tərtib edilmişdir. 1728-ci ildə tamamlanan bu dəftərlərin biri İrəvan, digəri Naxçıvan bölgəsini əhatə edir. İrəvan bölgəsinin müfəssəl dəftərinə görə "Revan livası" adlanan bu bölgəyə İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dəraçiçək, Abaran, Göyçə, Məzrəə, Sürməli, İqdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyələri daxil idi [5, s.8]. Bu mənbədən aydın olur ki, sonradan Sürməli mahalı (qəzası) adlanan inzibati vahidə 3 nahiyə (sahə): ***Sürməli, İqdır və Aralıq*** daxil idi. Sürməli nahiyəsi 48 kənddən ibarət idi və müfəssəl dəftərlər tərtib edilən zaman yalnız 28 kənddə əhali yaşayırdı. Bu kəndlərdə 482 ev mövcud idi və 2481 nəfər sakini vardı. Onların 1742 nəfəri müsəlman, 739 nəfəri qeyri-müsəlman idi [22, s.163, 175]. İqdır nahiyəsi 67 kənddən ibarət idi və XVIII əsrin 20-ci illərində yalnız 45 kənddə əhali yaşayırdı. Bu kəndlərdə 993 ev mövcud idi və 5052 nəfər sakini vardı. Onların 3600 nəfəri müsəlman, 1452 nəfəri qeyri-müsəlman idi [22, s.198]. Aralıq nahiyəsi 36 kənddən ibarət idi və XVIII əsrin 20-ci illərində onların yalnız 20-də əhali yaşayırdı. Bu kəndlərdə 9 ev mövcud idi və 2696 nəfər sakini vardı. Onların 1899 nəfəri müsəlman, 797 nəfəri qeyri-müsəlman idi [22, s.212]. İrəvan bölgəsinin müfəssəl dəftərindən bəlli olur ki, XVIII əsrin 20-ci illərində Sürməli, İqdır və Aralıq nahiyələrində yaşayan əhalinin

ümumi sayı 10229 nəfər idi və onların da 7241 nəfəri və ya 70 faizindən çoxu müsəlman, yəni Azərbaycan türkü idi.

Bu mənbədə diqqəti çəkən bir məqam da həmin dövrdə adları çəkilən bölgələrdə mövcud olan 151 kənddən yalnız 93-də insanların yaşamasıdır. Bu dövrdə yaşayış məntəqələrinin üçdə birindən çoxunda əhali yaşamamasının əsas səbəbi Osmanlı hücumu zamanı şiə əhalinin dini təqiblə bağlı öz yurdlarını tərk etmələri idi. Akademik Y.M.Mahmudov haqlı olaraq qeyd etmişdir ki, "... mənbədən istifadə edərkən Osmanlı imperiyasının dini siyasəti nəticəsində zaman-zaman bölgə əhalisinin – Azərbaycan türklərinin öz doğma yurd-yuvalarını müvəqqəti tərk etməsi, qədim yaşayış məskənlərimizin müvəqqəti boş qalması, yurdumuzun bu bölgələrinə Osmanlı imperiyasının müxtəlif ərazilərindən qeyri-türk və qeyri-müsəlman etnoslarının köçürülməsi kimi məsələlər nəzərə alınmalıdır" [7, s.6].

Yuxarıda adları çəkilən Sürməli, İqdır və Aralıq nahiyələri XVIII əsrin ortalarında İrəvan xanlığı yarandığı zaman bir inzibati vahidə çevrilmiş və Sürməli mahalı adı ilə tanınmışdı.

Rusiya ağalığı dövründə inzibati bölgüdə yeri. Rus qoşunları tərəfindən İrəvan qalası işğal edildikdən dərhal sonra, 1827-ci il oktyabrın 6-da xanlığın ərazisini idarə etmək, əmin-amanlığı təmin etmək, xaricdən hücumların və daxildə baş verə biləcək qarışıqlığın qarşısını almaq məqsədi ilə üç nəfərdən ibarət Müvəqqəti Vilayət İdarəsi yaradıldı. Bu idarəyə İrəvan bölgəsində yerləşən hərbi hissənin komandanı general-leytenant A.İ.Krasovski (rəis), İrəvan qalasının komendantı, podpolkovnik Borodin (üzv) və erməni əhalisinin təmsilçisi, keşiş Nerses (üzv) daxil idilər [AKAK, т.VII, с.480-481]. Müvəqqəti idarənin vəzifəsi Qacarlar dövləti ilə sülh müqaviləsi bağlanana kimi İrəvan xanının hakimiyyətini əvəz etmək, vilayətdə hərbi əməliyyatlar gedişində pozulmuş sakitliyi bərpa etmək, normal idarəçiliyə keçməyə şərait yaratmaq idi. Rusiya işğalı başa çatan kimi İrəvan xanlığı ləğv edildi, İrəvan əyaləti yaradıldı. Həmin vaxt yeni işğal edilmiş Naxçıvan xanlığı da əyalətə çevrildi və idarəçiliyi isə general İ.Paskeviçin göstərişi ilə Naxçıvan xanı Ehsan xanın əlində saxlandı. Ehsan xanın idarəçiliyi Müvəqqəti Vilayət İdarəsinin nəzarəti altında həyata keçirilməli idi [14, s.87].

1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan əyalətləri əsasında **Erməni vilayəti** yaradıldı [26, ст. 1 888, с.272-273]. Qafqaz tarixində ilk dəfə olaraq, Araz çayından şimalda ermənilərin əvvəllər, demək olar ki, heç yaşamadığı ərazi Erməni vilayəti adlandı. Osmanlı və Qacarlar İranından erməni ailələri kütləvi surətdə köçürülərək bu yerlərdə məskunlaşdırıldı və onlara imtiyazlı şərait yaradıldı.

Rusiya hakimiyyəti xanlıq dövründəki inzibati bölgünü dəyişmədən saxladı. Yəni Erməni vilayətində ***Sürməli və Dərəkənd-Parçenis mahalları*** İrəvan əyalətinin ayrı-ayrı inzibati vahidləri kimi qalmaqda idi [34, с.443-444].

Sürməli mahalı Araz çayının sağ sahili boyunda eyni adlı çayla Ağrıdağ dağ silsiləsi arasında yerləşirdi. İrəvan xanlığında köçəri əhalinin əksəriyyəti bu bölgədə yaşayırdı. Mahalın mərkəzi İqdır idi. Ağrıdağın ətəklərində 49 kənd mövcud idi [1, s.123]. Bu kəndlərin əkinçiliklə məşğul olan əhalisi tarlalarını Arazın suyu ilə suvarırdı. Mahalın cənubunda maldarlıq əsas yer tuturdu və əkinçiliyə o qədər də diqqət yetirilmirdi. İ.Şopen bu mahalda daha əvvəl 28 kəndin də olduğunu, lakin həmin dövrdə tamamilə dağıdıldığını bildirmişdir [34, с.512-513].

Dərəkənd-Parçenis mahalı da Araz çayının sağ sahili boyunda, Sürməli mahalından qərbdə yerləşirdi. Daha öncə Sürməli mahalının bir hissəsi idi, Hüseynqulu xan bu bölgəni ayıraraq mahala çevirmişdi. Bu mahaldakı Qulp daş duz mədəni böyük əhəmiyyətə malik idi. Mahal 55 kənddən ibarət idi: 29-u Dərəkənd, 26-sı Parçenis sahələrində idi. Mahalın mərkəzi Qulp idi. Mahal Əsni köçəri tayfasının əsas məskəni idi [1, s.123-124]. İ.Şopen Parçenis dərəsində daha əvvəl 8 kəndin də olduğunu, lakin həmin dövrdə dağıdıldığını bildirmişdir [34, с.443].

İ.Şopen Rusiya işğalından dərhal sonra İrəvan əyalətində mahalların 4 dairəyə: İrəvan, Şərur, Sürməli və Sərdarabad adlı inzibati vahidlərə daxil edildiyini göstərmişdir. ***Sürməli dairəsi Sürməli, Dərəkənd-Parçenis, Qərnibasar, Vedibasar mahallarını əhatə edirdi*** [34, с.448].

Əslən erməni mənşəli olan Rusiya ordusunun general-mayoru, knyaz V.O.Bebutov «Erməni vilayəti»nin rəisi təyin edildiyi 1830-cu ildən [25, т.VII, с.497] sonra yerli azərbaycanlı və müsəlman kürd əhalinin, eləcə də yeni köçürülmüş sadə erməni əhalinin iqtisadi vəziyyəti kəskin şəkildə pisləşdi. Həmin dövrdə Cənubi Qafqazı gəzmiş alman səyyahı Moris Vaqner yazmışdı ki, o, bu ölkəni (Erməni vilayətini – K.Ə.) idarə edənlər içərisində ən pis, ən qəddar və talançı rəis idi. Heç bir bir paşa, heç bir

sərdar kasıb kəndlilərin qan-təri hesabına bu erməni rəisi qədər qızıl pul, sərvət qazanmamışdı [9, s.217].

XIX əsrin 30-40-cı illərində iqtisadi-ticarət əlaqələrinə mənfi təsir göstərən digər amil Qacarlar İranı ilə, Osmanlı dövləti ilə, Qafqazın əsas şəhərləri ilə müntəzəm ticarət etmiş müsəlman tacirlərin sıxışdırılması, doğma yurdundan qovulması, mallarının əlindən alınması idi. Müsəlman tacirləri İrəvan şəhərində və əyalətində sıxışdırıb, onlara məxsus bazar-dükanı ələ keçirən erməni tacirləri yalançı, hiyləgər, götürdüyü öhdəlikləri yerinə yetirməyən etibarsız tərəfdaş olduqları üçün regionda və bütövlükdə Cənubi Qafqazda normal ticarət əlaqələri pozuldu [9, s.215].

Bəhs edilən dövrdə bölgənin iqtisadi həyatına mənfi təsir edən önəmli amillərdən biri də rus dövlətinin tətbiq etdiyi müstəmləkəçi rejim – komendant idarə üsulu idi. Xristian, xüsusən də erməni məmurlar yerli müsəlman türk əhaliyə yuxarıdan baxır, təkəbbürlə davranırdılar. Yerli adət-ənənələri nəzərə almır, yabançı qaydalarla idarə etməyə çalışırdılar. Məmurların özbaşınalığı və rüşvətxorluğu o dərəcəyə çatmışdı ki, yerli müsəlman – türk əhali ilə yanaşı, İrandan yeni köçürülmüş ermənilər də geriyə, gəldikləri yerlərə dönməyə başlamışdılar.

Erməni xadimləri çar Rusiyası rəhbərliyi tərəfindən Erməni vilayəti yaradılmasına nail olsalar da, onun idarə edilməsində bacarıqlı olmadılar. Çar I Nikolayın 1837-ci ildə bu vilayətə səfəri göstərdi ki, ermənilər ticarət və siyasi intriqalarda nə qədər zirək olsalar da, dövlətçilik təcrübələri olmadığından, idarəçilikdə bir o qədər bacarıqsız və yarıtmaz idilər. Çarın fərmanı ilə dərhal vilayət rəisi V.O.Bebutov və əlaltıları vəzifələrindən qovulsalar da, vəziyyət yaxşılığa doğru dəyişmədi. 1843-cü ildə İrəvanda olmuş alman səyyahı Moris Vaqner obrazlı şəkildə yazmışdı ki, "Rusiya ikibaşlı qartalı İrəvan çuxuruna çatdığı zamandan tətbiq etdiyi eybəcər, zəhlətökən gömrük siyasətinə görə ticarət birdəfəlik solmuş, pozulmuşdur. Bir vaxtlar İran-Gürcüstan yolunun tam ortasında olan İrəvan karvansarayları, dükanları aşıb-daşır, ticarət çiçəklənirdi. Ağır yük altında kəhildəyən dəvələrlə, kişnəyən atlarla dolu olan karvansara həyətləri indi bomboş qalmışdır" [9, s.215].

1840-cı il aprelin 10-da çar I Nikolayın fərmanı ilə Erməni vilayəti ləğv edildi və ərazisi yeni yaradılan **Gürcü-İmereti quberniyasına** qatıldı. *İrəvan əyaləti* də onun tərkibində *qəzaya* çevrildi [27, ст. 13 368, с.238]. 1846-cı il dekabrın 14-də çar I Nikolayın yeni fərmanı ilə Gürcü-İmereti quberniyası əsasında ***Tiflis və Kutais quberniyaları*** yaradıldı. İrəvan qəzası Tiflis quberniyası tərkibində qaldı [28, ст.20 701, с.647].

1849-cu il iyunun 9-da çar I Nikolayın daha bir yeni fərmanı ilə Tiflis quberniyasına daxil olan İrəvan, Naxçıvan və Aleksandropol qəzaları əsasında **İrəvan quberniyası** yaradıldı [29, ст.23 303, с.311-312]. Həmin vaxt quberniya 5 qəzadan ibarət idi və Sürməli və Dərəkənd-Parçenis bölgələri sahə (nahiyə) kimi İrəvan qəzasının tərkibində idi.

1859-cu il iyunun 19-da çar II Aleksandrın fərmanı ilə İrəvan qəzası İrəvan və Eçmiədzin qəzalarına, Eçmiədzin qəzası da öz növbəsində Sərdarabad və Sürməli sahələrinə bölündü [30, ст.34 646, с.591].

Sürməli qəzası 1874-cü il noyabrın 3-də İrəvan quberniyasının tərkibində Eçmiədzin qəzasının 2-ci hissəsinin – Sürməli sahəsinin ayrıca qəzaya çevrilməsi nəticəsində yaradıldı [31, ст.54 010, с.353]. Beləcə, İrəvan quberniyası 7 qəzadan ibarət oldu ki, bu bölgü Rusiya imperiyasının süqutuna kimi dəyişilməz qaldı. Həmin dövrə aid rəsmi məlumatlara görə Sürməli qəzasının ərazisi 3 151 kv.verst (3 586 kv.km), əhalisi 31 991 kişi, 27 239 qadın olmaqla, cəmi 59 230 nəfər idi [33]. Sürməli qəzasına tarixən eyni adlı mahalın və Dərəkənd-Parçenis mahalının əraziləri daxil idi.

Nəticə. Tarixi Azərbaycan torpağı olan İqdır (Sürməli) bölgəsi Osmanlı imperiyası ilə Cənubi Qafqaz respublikaları arasında 4 iyun 1918-ci il tarixdə Batum şəhərində imzalanmış müqavilələrə və 1920-ci il dekabrın 2-də Türkiyə ilə Ermənistan Respublikası arasında *Gümrüdə (Aleksandropolda)*, 1921-ci il martın 18-də Sovet Rusiyası ilə Türkiyə arasında *Moskvada*, həmin il oktyabrın 13-də *Qarsda* Türkiyə ilə Cənubi Qafqaz sovet respublikaları arasında bağlanmış müqavilələrə görə [3, s.4, 25, 31-34, 70, 76-79] Türkiyəyə keçmişdir. İqdır bölgəsi bir nahiyə kimi əvvəlcə Bəyazid vilayətinə, 1934-cü ildə Qars vilayətinə daxil edilmişdir. **1992-ci ildə İqdır bölgəsi Qaraqoyunlu, Aralıq və Tuzluca bölgələri ilə birlikdə ayrıca ilə – vilayətə çevrilmişdir** [21, s.68].

İqdır (Sürməli) bölgəsi hazırda Türkiyə Respublikasına daxildir və ölkənin şimal-şərq ucqarında ***Iğdır ilini – vilayətini*** təşkil edir. Əhalisi 195 min nəfər (2017-ci il yanvarın 1-nə olan məlumata görə),

ərazisi 3664 km^2-dir [18,19]. Kiçik Qafqaz dağ silsiləsinə aid ən uca zirvə olan Böyük Ağrı dağı (5137 m hündürlükdə) bu bölgədədir. İqdır ilinin özəl cəhəti Türkiyə və Azərbaycan respublikaları arasında körpü rolu oynamasıdır.

ƏDƏBİYYAT

1. Burnutyan, C.A. İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828. // Təkrarlanan tarix – təkrarlanan şərhlər. "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" kitabının müəllifi Corc Burnutyanın rus-sovet və erməni tarixçilərindən fərqli və oxşar cəhətləri. Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2011, s.83-255
2. Əliyeva K.Q. XIX-XX yüzilin başlanğıcında Sürməlı (İqdır) bölgəsinin etno-demoqrafik və sosial-iqtisadi vəziyyəti // SILK ROAD 2. International Scientific Research Congress September 26-27, 2023 Igdir University, Igdir, Türkiye, s.1360-1368
3. Gümrü, Moskva və Qars müqavilələri. Naxçıvan, 2004, 138 s.
4. Hacıyeva, Z.Ə. Təkrarlanan tarix – təkrarlanan şərhlər. "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828" kitabının müəllifi Corc Burnutyanın rus-sovet və erməni tarixçilərindən fərqli və oxşar cəhətləri.Bakı: "Şərq-Qərb" nəşriyyat evi, 2011, 256 s.
5. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akad. Z.Bünyadov və t.e.n. H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
6. İrəvan əyalətinin müfəssəl dəftəri. Tərtibçi T.H.Nəcəfli. Bakı: Çaşıoğlu, 2009, 676 s.
7. Mahmudov, Y.M. İrəvan şəhərinin və ətrafındakı ərazilərin tarixi Azərbaycan torpaqları olması danılmaz həqiqətdir. "İrəvan əyalətinin kameral təsviri. I c. İrəvan şəhərinin kameral təsviri" kitabına ön söz // İrəvan əyalətinin kameral təsviri. I c. İrəvan şəhərinin kameral təsviri. Bakı: "Turxan" NRB, 2018, s.3-6
8. Mahmudov, Y.M. Qədim Azərbaycan torpağı olan İrəvan bölgəsinin tarixinə dair qiymətli ilk mənbə "İrəvan əyalətinin müfəssəl dəftəri" // İrəvan əyalətinin müfəssəl dəftəri. Bakı: Çaşıoğlu, 2009, s.3-5
9. Məmmədov, İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: "Adiloğlu" nəşriyyatı, 2003, 700 s.
10. Nəcəfli, G. İrəvan xanlığının mahalları. Bakı: Azərbaycan tarixçiləri ictimai birliyi, 2017, 40 s.
11. Nəcəfli, T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (müasir Türkiyə tarixşünaslığında). Bakı: Çaşıoğlu, 2012, 604 s.
12. Nəcəfli, T.H. "Müfəssəl dəftər" haqqında qısa məlumat // İrəvan əyalətinin müfəssəl dəftəri / T.Nəcəfli. – Bakı: Çaşıoğlu, – 2009. – s.6-13
13. Şarden, J. Parisdən İsfahana səyahət (Səyahətnamə) / J.Şarden. –Bakı: Elm, – 1994. – 96 s.
14. Yenikolopov İ.K. Qriboyedov və Şərq. Şəki: "Kaskad" nəşriyyatı, 2017, 162 s.
15. Adem Yulu. Iğdır'da şehirsel gelişme ve mekansal degişim. İstanbul, 2012, 123 s.
16. Akyıldız Arslantürk. İrevan hanlığı // 3.Uluslararası Türk Şöleni Türk kültürü sempozyumu bildirileri. Erzurum, 2012, s.101-108
17. Faruk Sumer. Kara-Koyunlular (Başlangıcdan Cihan şaha kadar). C.I, Ankara: TTK Basımevi, 1984, 169 s.
18. Iğdır _(il) https://tr.wikipedia.org/wiki/
19. Iğdır 'ın ilçeleri https://tr.wikipedia.org/wiki/
20. Kırzıoğlu, F.M. Osmanlıların Kafkaz – ellerini fethi (1451-1590) / F. Kırzıoğlu. – Ankara: Türk Tarih Kurumu Basımevi, – 1998. – 550 s.
21. Nihat Cetinkaya. Iğdır tarihi (tarih, yer adları ve bazi oymaklar üzerine). İstanbul: Türk Dünyası Araşdırmaları Vakfı, 1996,404 s.
22. Osmanlı Belgelerinde Iğdır. Iğdır: Iğdır Universitesi Basım Matsis Matbaa, 2017, 251 s.
23. Ziya Zakir Acar. Her Yönüyle Iğdır. Iğdır, 2018, 519 s.
24. Ziya Zakir Acar. İlçemiz Tuzluca. Iğdır, 2012, 312 s.
25. Отношение гр. Паскевича к гр. Чернышеву, от 6-го января 1830 года /Акты, собранные Кавказскою археографическою комиссиею / Под редакцией А.П. Берже, т. VII. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1878, с.497

26. Полное собрание законов Российской империи. Собрание 2-е, отд.1-е, т. 3, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1830, 1642 с.
27. Полное собрание законов Российской империи, собрание 2-е, т. 15, ст. 13368, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1841, 961 с.
28. Полное собрание законов Российской империи. Собрание 2-е. Отделение 2-е, т.21, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1847, 739 с.
29. Полное собрание законов Российской империи. Собрание 2-е, т.24, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1850, 635 с.
30. Полное собрание законов Российской империи. Собрание 2-е. Отделение 1-е, т.34, СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1861, 839 с.
31. Полное собрание законов Российской империи. Собрание 2-е. СПб.: Тип. 2-го Отд-ния Собств. её императ. величества канцелярии, 1876, т.49, 1874, отд-е 2, 496 с.
32. Челеби, Е. Книга путешествия. Вып. 3. Земли Закавказья и сопредельных областей Малой Азии и Ирана / Е.Челеби. – Москва: «Наука», – 1983. – 376с.
33. Шопен, И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи / И.Шопен. – СПб., – 1852. – 1232 с.

КОНУЛ АЛИЕВА
Доктор философии по истории
Ведущий научный сотрудник Института истории НАНА

ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ СУРМАЛИНСКОГО (ИГДЫРСКОГО) РЕГИОНА (1828–2025)

Сурмалинский (Игдырский) регион расположен на западе Азербайджана, в юго-западной части исторической Иреванского ханства. Сурмалинский регион исторически являлся азербайджанской территорией, и азербайджанские тюрки неизменно составляли большинство населения этих мест с древних и средневековых времен. В представленной статье рассматриваются административные и этно-демографические изменения, произошедшие в Сурмалинском (Игдырском) регионе в XVIII–XX веках.

Ключевые слова: Сурмалинский уезд, Аралыгский и Игдырский районы, переселение армян и курдов.

KONUL ALIYEVA
Doctor of Philosophy in History
Leading Researcher, Institute of History, ANAS

HISTORICAL GEOGRAPHY OF THE SURMALY (IGDYR) REGION (1828–2025)

The Surmaly (Igdyr) region is located in western Azerbaijan, in the southwestern part of the historical Irevan Khanate. The Surmaly region has historically been Azerbaijani territory, and Azerbaijani Turks have consistently constituted the majority of the population in this area since ancient and medieval times. This article examines the administrative and ethno-demographic changes that occurred in the Surmaly (Igdyr) region from the 18th to the 20th centuries.

Keywords: Surmaly County, Aralig and Igdyr Districts, resettlement of Armenians and Kurds.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər:t.e.d. Hacı Həsənov, t.e.d. İbrahim Zeynalov.